BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Humanitar elmlər seriyası 2013*

# TARİX

**UOT 94 (479. 24)**

# XIX ƏSRİN SONU - XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN SAHİBKAR KƏNDİNDƏ TƏSƏRRÜFATÇILIĞIN YENİ SAHƏLƏRİNİN YARANMASI VƏ GENİŞLƏNMƏSİ

**F.E.BAXŞƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***baxsaliebfazil@yahoo.com***

*Azərbaycan sahibkar kəndində əmtəə-kapitalist münasibətlərinin yaranması və inkişaf mənbələri müxtəlif olmuşdur. XIX əsrin sonları-XX əsrin əvvəlində sahibkar kəndində əmtəə-kapitalist münasibətlərinin yaranmasının mühüm göstəricilərindən biri, ilk növbədə, ipəkçilik, sonra isə pambıqçılıq, taxılçılıq, maldarlıq və digər sahələdə icarə münasibətlərinin genişlənməsi idi. Sahibkar kəndində pambıqçılıq və tütünçülük sahələrinin ilbəil daha çox yayılması özünü ən müxtəlif formalarda göstərirdi. Mülkədar və bəylərə məxsus torpaqlarda bu sahələrin ən çox yayılması faktlarına Yelizavetpol və Qazax qəzalarında rast gəlinirdi. Ümumiyyətlə, isə Bakı və Yelizavetpol quberniyalarında ayrı-ayrı qəzalarda pambıqçılıq və tütünçülük sahələrinin yayılması bu məhsullara olan tələbatdan asılı idi.*

**Açar sözlər:** kapitalist, inkişaf, kənd, Şimal

Kəndli Əsasnaməsinin qəbulundan sonrakı onilliklərdə çox ləng formada olsa belə, yeni kapitalist münasibətlərinin yaranması, sahibkar kəndində torpaq-icarə əməliyyatlarının get-gedə çoxalması, muzdlu əməkdən istifadə, həm mülkədar, həm də kəndli torpaqlarının alqı-satqı obyektinə çevrilməsi, banklara girov qoyulmağa başlanması və digər hallar Azərbaycan sahibkar kəndi daxilində yeni keyfiyyət dəyişiklikləri yaratmalı idi. Bütün bunlar içərisində diqqəti xüsusilə cəlb edən cəhətlərdən biri əmtəə-pul münasibətlərinin yaranması və daha da inkişaf etməsi idi (2, 167).

XIX əsrin sonları – XX əsrin əvvəllərində sahibkar kəndində əmtəə-kapitalist münasibətlərinin yaranması və inkişafı, ilk növbədə daxili bazarın yaranmasına və ayrı-ayrı ərazilərin və qəzaların müxtəlif kənd təsərrüfatı məhsulları üzrə ixtisaslaşmasına, ən əsası isə təsərrüfatçılığın yeni formalarının yayılmasına təsir göstərirdi. Bunlar pambıqçılıq, tütünçülük və s. kənd təsərrüfatı istehsalı sahələri idi (1, 22). Digər tərəfdən, həm hər iki Azərbaycan

quberniyası, həm də ayrı-ayrı qəzalar üzrə əldə olunması, hesablanması və müqayisə edilməsi mümkün olan faktlar və statistik rəqəmlər göstərir ki, əmtəə-kapitalist münasibətlərinin yaranması və inkişafı prosesi kənd təsərrüfatı istehsalının bütün sahələrində heç də eyni sürətlə və dinamika ilə cərəyan etməmişdir. Taxılçılıq, maldarlıq, bağçılıq və üzümçülük, daha sonra ipəkçilik, pambıqçılıq, tütünçülük və s. kənd təsərrüfatı istehsalı sahələri əmtəə-kapitalist münasibətlərinin meydana gəlməsi baxımından tədqiqatımızda əsas diqqət mərkəzində saxlanmışdır. Lakin bu sahələrin heç də hamısında əmtəə-kapitalist münasibətlərinin yaranma vaxtı eyni olmamışdır.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan sahibkar kəndində kənd təsərrüfatı istsehsalının ənənəvi sahələrilə yanaşı, bir sıra yeni, ilk növbədə texniki bitki sortlarının yetişdirilməsi genişlənir. Özü də bu məhsul növləri yalnız satlıq məqsədilə, gəlir əldə etməkdən ötrü nəzərdə tutulduğu üçün yeni əmtəə-kapitalist münasibətləri özünə daha tez yol tapırdı.

Azərbaycanda kənd təsərrüfatı istehsalının nisbətən yeni sahəsi sayılan pambıqçılıqda da ticarət-sələmçi kapitalın və xarici firmaların kontorları sahibkar kəndlərində istehsal edilmiş pambığın alınmasında xüsusi fəallıq göstərirdilər. XIX əsrin 80-90-cı illərinin qovuşunda pambıq-əkin sahələrinin çoxluğu ilə fərqlənən Ərəş və Göyçay qəzalarında xarici firmaların, yerli tacirlərin və digər şəxslərin sahibkar kəndlərindən satın aldıqları məhsulun həcminin orta illik artımı 0,7-1 dəfəyə bərabər idi (4-№303).

Mülkədar təsərrüfatlarında, xüsusilə də onlardan müxtəlif şəxslərin icarəyə götürülmüş sahələrdə isə pambıq plantasiyaları onlarla və yüzlərlə desyatinə çatırdı. Bakı-Tiflis dəmir yol xəttinin istifadəyə verilməsi də bu sahənin sonrakı taleyini asanlaşdırmış oldu. Belə ki, bu bitkinin yetişdirildiyi plantasiyaların çoxu bu dəmiryol xətti boyunca və ona yaxın ərazidəki qəzalarda yerləşirdi.

Pambıqçılıq, əsasən, Yelizavetpol quberniyasında geniş yayılmışdı (10-№202) və pambıq plantasiyaları ilbəil genişlənirdi və minlərlə desyatin pambıq əkinləri mülkədar və digər xüsusi mülkiyyətçi kateqoriyasından olan şəxslərin əsl qazanc mənbəyinə çevrilmişdi (13, 164-165). İş o yerə çatmışdı ki, bəzi mülkədarlar, pambıq plantasiyalarının artırılması naminə taxıl əkinlərini azaldırdılar. Pambıq məhsulunun qiymətinin yüksəkliyi və daha çox gəlir verməsi ona gətirib çıxarırdı ki, bəzən meşəlik sahələri ağaclardan təmizlənir, hətta qışlaq yerləri pambıq plantasiyalarına çevrilirdi.

Azərbaycan sahibkar kəndində pambıqçılığın yayılması bir neçə yeni nəticələrə də səbəb olurdu. Bunlardan birinin üzərində bir qədər geniş dayanmaq yerinə düşərdi. Pambıq əkinlərindən bu işlə məşğul olan mülkədar və bəylərin sayının ilbəil artması nəticəsində əvvəllər kənd təsərrüfatı istehsalı ilə demək olar, heç bir bağlılığı olmayan şəxslər, tacirlər, sələmçilər, sənayeçilər və digərləri müxtəlif həcmdə torpaq mülkləri satın alaraq, orada muzdlu əmək-dən istifadə yolu ilə pambıq plantasiyaları alırdılar. Məsələn, «Кавказское сельское хозяйство» qəzetinin səhifələrində tanınmış neft sənayeçisi və

xeyriyyəçi H.Z.Tağıyevin sonralar «Yevlax mülkü» adlanan Cavanşir qəzasında 26 min desyatin torpaq sahəsi alması haqqında xəbər verilmişdi (7-№197). H.Z.Tağıyevin göstərişilə bu mülkdə pambıq əkininə başlanmış və sonrakı illərdə onun sahəsi durmadan artmışdı. Bu sahədən əldə edilən gəlirin çoxluğunun digər sahələri qabaqlaması aydın olduqdan sonra «Yevlax mülkündə» nümunəvi qaydalar, aqrotexniki üsullar, mütəxəssislərin iştirakı ilə pambıqçılıqla daha geniş məşğul olunmağa başlanmışdı (12, 13-14).

XIX əsrin 80-90-cı illərində kənddə əmtəə-kapitalist münasibətlərinin hələ yenicə yaranmağa başladığı vaxtlar artıq kəndlilərin, bəzən də mülkədarların şəxsi və təsərrüfatla bağlı tələbatlarının ödənilməsi ehtiyacları onların nağd pula tələbatlarını artırırdı və bu, ən çox təsərrüfat ilinin əvvəlində özünü büruzə verirdi. Hələlik borc kredit təşkilatları mövcud olmadığı üçün kəndli və mülkədarlar hazırlanan pambıq məhsulunun əvvəlcədən alıcısı olmaq xatirinə bütün ilboyu öz xidmətlərini təklif edən möhtəkir, sələmçi, tacir və başqa varlı şəxslərin təklif etdiyi şərtlərlə pul borc almağa məcbur olurdular. Sahibkar kəndlilərin, hətta mülkədarların böyük faizlə - 30-40%-lə, öz gələcək pambıq məhsulunu bu şəxslərə satmaq şərtilə borc-kredit almaları haqqında xəbərlərə bəzən dövri qəzet səhifələrində də rast gəlinirdi (9-№47).

XIX əsrin sonlarında əkin sahələri ilbəil genişlənən texniki bitki növlərindən biri də tütünçülük idi. Çox mənfəətli sayılan bu bitki növü Azərbaycanın əksər qəzalarında sahibkar kəndlərində becərilsə də, lakin bu, şəxsi tələbatın ödənilməsi məqsədinə xidmət edir və əmtəəlik xarakterində olmurdu. Yeganə istisna Yelizavetpol quberniyasında bəzi ərazilər, xüsusilə də Zaqatala dairəsi və Nuxa qəzası idi. Burada xeyli dərəcədə sahibkar kəndlilərinin və keşkəl sahiblərinin təsərrüfatlarında salınmış tütün plantasiyalarında tütünçülük ticarət-sənaye xarakteri daşıyırdı. Nəzərə alsaq ki, 1 desyatin tütün plantasiyasından alınan xalis gəlir 140-200 manat arasında dəyişirdi (tütün növündən asılı olaraq) (25, 79), onda bu sahənin əmtəə-kapitalist münasibətlərinin inkişafında nə dərəcədə mühüm rol oynaması aydınlaşar. Tütün plantasiyalarının çoxunun irihəcmli keşkəl sahiblərinin təsərrüfatları daxilində yerləşməsi və burada daha çox muzdlu əməkdən istifadə edilməsi fikrimizi bir daha təsdiq etmiş olur. Bəhs olunan dövrdə Azərbaycan qəzalarında hər il 30-45 min pud arasında tütün istehsal olunduğunu və bunun 2/3 hissəsindən çoxunun iri mülkədar və torpaq sahiblərinin payına düşdüyünü (5-№11, 91), bir pud tütün yarpağının qiymətinin 5,5-8 manat arasında dəyişdiyini nəzərə alsaq (6-№11, 68-69), deyə bilərik ki, Azərbaycan sahibkar kəndində kənd təsərrüfatı istehsalının bu sahəsində də təsərrüfat və istehsal əmtəə xarakteri daşımış və burada əmtəəlik məhsul istehsalı özünün ən yüksək inkişaf pilləsinə yaxın idi.

Mülkədar malikanələrində kəndlilərin və digər peşə sahiblərinin muzdlu əməyindən istifadə edilməsi hallarına kənd təsərrüfatının, demək olar, bütün sahələrində rast gəlmək mümkün idi. Lakin muzdlu əməyin tətbiqinə XIX əsrin son iki onilliyində daha çox üstünlük verildiyi sahə texniki bitkilərin, o

cümlədən tütünçülük və digərlərinin yayıldığı və yerləşdiyi rayonlarda olan mülkədar malikanələri idi. Bunun bir çox səbəbləri ola bilərdi. Bu sahələrlə yerli əhali məşğul olmaqda az-çox müəyyən ənənələrə malik olsa da, həmin sahələrin bəhs edilən dövrdə yüngül və yeyinti sənaye sahələri üçün xammala tələbatın yaranması, bu əkinçilik sahələrinin xüsusi olaraq ağır zəhmət və diqqət tələb etməsi və başqa amillər də öz təsirini göstərirdi.

Məsələn, Şamxorlu Böyük Ağa bəyin 6-7 min desyatin sahədə Haqverdi bəy Adıgözəlovun 500 desyatinə yaxın sahədə, İsrafil bəy Bədirbəyovun və onlarla digər mülkədarların pambıq əkin plantasiyalarında yalnız muzdlu əməkdən istifadə edilmişdi (15, 31-32).

Lənkəran qəzasında mülkədarlara məxsus çəltik plantasiyalarında muzdlu işlərin, özü də daha çox Cənubi Azərbaycandan gələn kasıbkarların, əməyindən geniş istifadə hallarına tez-tez rast gəlinirdi (11-vər. 16).

Azərbaycanda mülkədarların təsərrüfatçılığın yeni metodlarına keçmək istəyən və bu yolda ilk addımlarını atan bir çox nümayəndələri pambıqçılığa üz tuturdular. Bu sahə isə demək olar, uzun müddət bitkiyə qulluq, becərmə və başqa müxtəlif strateji aqrotexniki qaydalardan istifadə edilməsini tələb etdiyi üçün muzdlu işçilərin işlə təminat dərəcəsi və müddəti daha çox idi. Belə təsərrüfatlar, xüsusilə də irimiqyaslı pambıqçılıq təsərrüfatlarında muzdlu əməyin geniş tətbiqi Yelizavetpol quberniyasında daha çox idi (16, 27).

Sahibkar kəndində muzdlu əməkdən istifadə edilməsində başqa bir yeni cəhət indi nəinki yaxın kəndlərdən, qonşu qəzalardan, Cənubi Azərbaycandan gələnlərin əməyindən istifadə edilməsi, həmçinin əkinçilik, xüsusilə taxıl əkini sahələrində qəza mərkəzləri və şəhərlərdən gələn yoxsul şəhər əhalisinin də taxıl yığılması zamanı iştirak etməsi idi. Belə ki, Yelizavetpol quberniyasının əksər qəzalarında kəndli təsərrüfatlarının çoxsahəliliyi (bağçılıq, heyvandarlıq, ipəkçilik və digər sahələrin), onların daimi diqqət və vaxt tələb etməsi üzündən mülkədar təsərrüfatlarında taxıl məhsulu biçini və yığımını vaxtında başa çatdırmaq mümkün olmurdu. Belə hallarda, təkcə sahibkarlar deyil, bəzən müvəqqəti mükəlləfiyyətli kəndlilər də öz təsərrüfatlarında qısamüddətli muzdlu əməkdən istifadə etməyə məcbur idilər. Quberniyanın, Nuxa, Ərəş və digər qəzalarında sahibkar təsərrüfatlarında şəhər yoxsullarının da iştirak etməsi haqda dövri mətbuat səhifələri xəbər verirdi (8-№146).

Lakin sahibkarların müəyyən hissəsi başqa yolla gedərək torpaq sahələrini ya bir illik, ya da 2-3 illik, yaxud da daha uzun müddətə icarəyə verirdilər (3, 147). Məsələn, Yelizavetpol quberniyası üzrə XIX əsrin sonunda 600391 desyatin sahibkar torpaqlarının 1/3-i kəndlilərə və digər şəxslərə icarəyə verilmişdi.

Ümumiyyətlə isə, icarədarlar tərəfindən taxıl və digər ərzaq bitkilərilə yanaşı, pambıq, çəltik, tütün və başqa bitkilərin yetişdirilməsi digər qəzalarla müqayisədə bir qədər geniş olsa da, lakin icarədarların bu işlə məşğul olduğu malikanələrin sayı o qədər də çox deyildi. Ərəş qəzasında icarə edilmiş sahələr

içərisində 26 malikanə üzrə 187 desyatin sahədə pambıq becərilmişdisə, bunların icarədarların payına düşən hissəsi malikanə üzrə 125 desyatin torpaq sahəsi olmuşdu. Belə malikanələr içərisində icarədarların pambıqçılıqla məşğul olanları arasında 3 malikanədə torpağın mülkiyyətçilərinin bütün sahələri icarədə olmuşdu. Cəmi 8 halda belə torpaqlarda pambıqçılıqla həm sahibkarların, həm də icarədarların məşğul olduğu qeydə alınmışdı (14, 33,35). Pambıqçılıqla məşğul olan icarədarların ən kiçik sahəli plantasiyaları 1 desyatin həcmdə 2 yerdə – Xəsil kəndində Mustafa bəy Mahmud bəy oğlunun və Xaldan kəndində Kərim bəy Abdulla bəy oğlunun və böyük həcmdə olanlar isə Kotanarxı kəndində Şirin bəy Xəlilbəy oğlunun (30 desyatin) və Ərəbocağı kəndində Əbdülsalam bəy Qazıyevin (70 desyatin) icarədarları içərisində qeydə alınmışdı (14, 35).

Şimali Azərbaycanda ayrı-ayrı qəzalarda yüzlərlə, bəzən minlərlə desyatin torpaq sahəsini müxtəlif şəxslərə müxtəlif şərtlər - ya məhsulun müəyyən hissəsi əsasında, ya da pulla icarəyə verilməsi faktları çox idi. İrəvan quberniyasının İrəvan qəzasında Böyük Vedi kənd cəmiyyətinə daxil olan sahibkar malikanələrində cəmi 208,3 desyatin sahibkarların istifadəsində qalan 8387 desyatin icarəyə verilmiş torpaqlar idi. Kəndin torpaqlarından 1250 desyatinə sahib olan Əli bəy Fəti xan oğlu, 1255 desyatinə malik Xanbaba bəy Fətixan oğlu, Balasultan Fəti xan oğlu Şadlinski öz 1260 desyatin xüsusi torpaqlarını bütünlüklə icarə vermişdilər (14, 9-10). İcarədarlar bu torpaqların yalnız bir hissəsindən taxıl əkini sahələri kimi, qalanlarından isə otlaq yeri kimi istifadə etmişdilər.

Bu mülkədarlardan 4-nün torpaqlarında icarədar kəndlilərin, təxminən, 20 desyatinə yaxın sahədə pambıq bitkisi becərmələri yeni cəhət idi və pambıq və digər texniki bitkilərin icarə torpaqlarındakı əkin sahəsi ilbəil genişlənməkdə idi (14, 10-11). Şərur-Dərələyəz qəzasının Şərur, Təkağac və digər kəndlərində 258 desyatin mülkədarların şəxsi istifadəsində, qalan 3310 desyatin bütünlüklə icarədar kəndlilərin istifadəsində idi. İcarəyə verilmiş və 16 nəfər mülkədara məxsus bu torpaqlar bu kateqoriyadan olan digər torpaq sahələrindən fərqlənməsə də, yalnız ümumi sahəsinin böyük olması istisna idi, fərqli cəhət bu idi ki, 269 desyatin sahədə pambıq, 86 desyatində isə çəltik məhsulu becərilirdi (14, 11-12). Qəzanın Baş Noraşen və Zeyvə kəndlərində yerli mülkədar və bəylərə məxsus 59,63 desyatin torpağın icarəyə verilmiş 56,71 desyatinində, demək olar, bütünlüklə pambıq və çəltik becərilirdi (14, 11-12).

## ƏDƏBİYYAT


1. Vəliyev T.T. XX əsr Azərbaycan tarixi. II c. Bakı: Təhsil, 2009, 560 s.
2. Гасанов Г.Н. Из истории Североазербайджанской деревни в конце XIX – начале XX вв. Баку: Тахсил, 2007, 224 с.
3. «Кавказ и мир». Международный научный журнал. 2011, №10.
4. «Кавказ» газ. 1893 г., №303.
5. Кавказский календарь, №11, 1906 г., разд. III.
6. Кавказский календарь, №11, 1903 г., разд. III.
7. «Кавказское сельское хозяйство» газ., 1897 г., №197.
8. «Кавказское сельское хозяйство» газ. 30 октября 1911 г., №146.
9. «Каспий» гяз., 7 июля 1901 г., №47.

10. «Кавказское сельское хозяйство» газ., 1897 г., №202.
11. Gürcüstan Dövlət Tarix Arxivi., f. 13. siy. 1., iş 267.
12. Отчет о деятельности Кавказского Общества Сельского Хозяйства за 1909 г. Тип-я Губернского статистического управления. Тифлис, 1911 г., 368 с.
13. Умаев А.А. Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX -начале XX вв. Баку: Элм, 2002, 526 с.
14. Свод статистических данных о населении Закавказского края извлеченныхь изь посемейнихь списков 1886 г. прил. 5., Типография Главного Управления Наместника Кавказа. Тифлись 1993., 671 с.
15. Труды сьезда хлопководов в городе Тифлисе сельских хозяев 1-6 ноября 1912 года. т.2., ч.2. Тип. Губернского статистического управления., Тифлис 1914 г., 335 с.
16. Тимофеев С.Н. Статистика хлопководства в Закавказском крае за 1909-1911 гг. Тип. Губернского статистического управления. Тифлис, 1912 г., 654 с.

## РАСПРОСТРАНЕНИЕ И РАСШИРЕНИЕ НОВЫХ ОТРАСЛЕЙ ХОЗЯЙСТВОВАНИЯ ВО ВЛАДЕЛЬЧЕСКОЙ ДЕРЕВНЕ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА В КОНЦЕ XIX – НАЧАЛЕ XX ВЕКОВ

**Ф.БАХШАЛИЕВ**

### РЕЗЮМЕ

В рассматриваемый период одна из важных особенностей развития товарного производства во владельческом деревне Северного Азербайджана являлось увеличение доли присутствия помещиков и других собственников в общем количестве сельскохозяйственных товаров. Со временем их хозяйства все больше и больше носили капиталистический характер. Интенсивная обработка пахотных земель с помощью технических оборудований, в том числе железных плуг, зерновых машин и других средсв, ускорили развитие товарно-капиталистических отношений. В рассматриваемый период в некоторых областях сельского хозяйства товарное производство уже стало носить промышленный характер. Такие отрасли хозяйствования во владельческом деревне Северного Азербайджана как хлопководство и табаководство, были новыми и приносили большие доходы.

**Ключевые слова:** капиталист, развитие, деревня, Северный

## THE FORMATION OF CAPITALIST RELATIONS IN THE POSSESSORY COUNTRIES OF NORTHERN AZERBAIJAN IN THE LATE XIX CENTURY

**F.E.BAKSHALIYEV**

### SUMMARY

The article describes all the changes in the formation of capitalist relations in the possessory villages of Northern Azerbaijan. It is indicated that not only the landlords and bays, but also their peasants began producing more and more products on their farms. Landowners of Northern Azerbaijan, gradually lost their former lands, gave their lands to rent, and people began to conduct their farms themselves under the new capitalist rules.

**Key words:** capitalist, development, village, Northern